UOT: 33.657

Qurban Rauf oğlu MİRZƏYEV
Azərbaycan Dövlət Aqrar Universiteti, dissertant
e-poçt: qurban.mirzayev@bk.ru
10.30546/4.71.73001.2024.05

LİZİNQ ƏMƏLİYYATLARININ VƏ ONLARIN UÇOTUNUN QLOBALLAŞAN MALİYYƏ-UÇOT SİSTEMİNDƏ YERİ VƏ ROLU

Xülasə

Tədqiqatın məqsədi – dünya iqtisadiyyatında aqrar sahə üzrə lizinq əməliyyatlarının indiki dövrə cavab verən uçot sistemlərinin rolu və ölkədə bu sistemlərin faydalılığı, onların iqtisadi artım tempinə adekvatlığının araşdırılmasıdır. Həmçinin, yeni çağırışlara uyğun gələn təkmil mühasibat uçotu sisteminin etibarlılığının artırılması bu sistemlərin yeni standartlara uyğunlaşdırılmış uçot və audit işi üzrə metod və metodologiyasının hazırlanması, habelə uçot işinin keyfiyyətinin artırılmasında yeni üsulların tətbiq edilməsi məsələləridir.

Tədqiqatın metodologiyası - metodlardan əsasən tədqiqatların empirik üsullara əsaslandırılmış, praktiki istifadədə olan təcrübələrdən, maliyyə hesabatlığının effektivliyinin artırılmasının rasional ölçülməsi, uçot işinin təşkilinin vektorial yoxlanması, qiymətləndirilmə, müqayisəli təhlil və ümumiləşdirmə kimi üsullardan istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış nəticələrdən uçotun yenidən qurulmasında və yeni təşkil olunan təsərrüfat subyektlərdə mühasibat uçotu ilə bağlı nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

Tədqiqatın nəticələri –tədqiqat işinin əsas əhəmiyyəti maliyyə məlumatları əsasında qərarların qəbul edilməsində mühasibat uçotunun düzgün aparılmasının əhəmiyyəti və lizinq əməliyyatları üzrə müasir standartalara əsaslanan qiymətləndirilmə və tanınma elementlərinin formalaşması üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə göstərilən problemlərin həlli metodoloji bazanın da imkanlarından istifadə etməklə müasir tələblərə uyğun MHBS tələbləri üzrə yanaşmaya nail olunmasıdır. Bununla əlaqədar məqalədə təqdim edilmiş tövsiyələr lizinq əməliyyatları üzrə uçot işinin təşkilində müasir standartların tələblərinə maksimum əməl edilməsi, liznq əməliyyatları üzrə uçotun müasir çağrışlara cavab verən yanaşmalarına nail olunmasıdır.

Açar sözlər: aqrar sahə, audit işi, lizinq, uçot standartları, müasir uçot qaydaları.

Giriş

Bildiyimiz kimi istehsalı şərtləndirən əsas üç amildən biri də əmək alətləridir. Belə ki, istehsalın müasir avadanlıqlarla təhciz edilməsi məsələsi daim maddi nemətlər bolluğuna çalışan dünyamızın əsas hədəfidir desək yanılmarıq. Xüsusilə də “gəlir əldə edilməsi elə də asan olmayan dövrdə, lizinq müəssisələr üçün müasir avadanlıqlara yetərincə kapital qoyuluşu ayıra bilməyən təsərrüfat subyektlərdə maliyyələşmənin ən ideal formalarından biridir” [3, s. 40]. Müəssisələr qısa zaman ərzində yüksək texnologiyalı layihələrdə iştirak payına sahib olmaq və elə də böyük vəsait ödəmədən lazımi avadanlıqlara sahiblənməklə dövriyyə vəsaitinin kənara yönəlməsinin qarşısını alır. Xüsusilə də dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsində birbaşa iştirak edən kənd təsərrüfatı əməliyyatlarında lizinq məsələləri çox aktualdır. Son dövrlərdə statistik məlumatlara əsaslanaraq deyə bilərik ki, ölkə ərazisində aqrotexniki tədbirlərin avtomatlaşdırılmasında və əl əməyinin minimuma endirilməsində böyük işlərin aparılması ilə yanaşı hələ də bu sahə üzrə problemlər qalmaqdadır.

Cədvəldən göründüyü kimi 2017-ci ildə satılmış və ya verilmiş maşınların dəyəri 270 milyona yaxın olsa da 2022-ci ildə bu rəqəm 8.5 dəfə azalmışdır. Azalmaya əsasən bir sıra subyektiv və obyektiv məsələlər təsir göstərmişdir. Hesab edirik ki, obyektiv təsir kimi, əlbəttə, bu, pandemiya dövrüdür. Subyektiv təsir kimi isə, əmtəə məhsullarına tələbatın azalması, xarici istehsalçıların

satış ilə əlaqədar daha ehtiyatlı yanaşması, daşınma xərclərinin çox olması, xarici şirkətlərin birbaşa lizinq xidmətlərindən istifadə edilməsi çətinliyi göstərilə bilər.

Cədvəl 1.

Dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı, ədədlə

Texnika və avadanlıqlar / İllər	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022
Traktorlar	765	1191	1061	1204	1645	1346	662	266	137	S6
Kotanlar	604	950	759	670	838	692	197	134	67	71
Kultivatorlar		16	41	140	751	259	188	54	39	3
Səpici aqreqatlar	239	307	439	565	961	652	180	147	67	90
Otbiçənlər	41	61	162	8	95	S9	64	10	5	20
Otpresləyənlər	-	7	73	24	34	60	21	34	1	29
Pambıqyığanlar	-	-	-	94	3 79	101	45	12	1	15
Taxılyığan kombaynlar	95	514	116	126	2	118	225	54	106	49
Gübrəsəpən maşın	40	39	111	187	92	65	64	6	2	13
Çiləyici və tozlayıcı maşınlar	50	56	110	231	394	212	77	88	43	7
Yumşaldıcılar	7	4	32	1	-	21	2	133	8	12
Taxıl-toxum təmizləyənlər	33	14	30	15	33	30	28	12	-	-
Malalar	22	51	57	226	343	219	80	131	72	46
Ot dırmıqları	17	23	22	51	29	32	29	9	1	16
Bağarası freyzlər	21	11	19	23	31	25	13	71	2	4
Traktor yedəkləri (qoşquları)	16	23	173	292	1370	588	180	115	30	4
Kombayna qoşulan biçici aqreqatlar	11	11	5	14	12	27	20	14	12	20
Digər kənd təsərrüfatı maşın və avadanlıqları	111	71	187	216	1066	626	260	479	138	129
Satılmış və verilmiş maşınların dəyəri, milyonla	37,9	95,1	59,2	138,7	269,4	197,9	130,6	52,3	37,6	31,8

Mənbə: Cədvəl AR Dövlət Statistika Komitəsi məlumatlarına əsasən tərtib edilmişdir.

Aqrar sahədə lizinq əməliyyatlarının uçot işinin qurulması istiqamətləri

Əsas məsələlərdən biri kimi xarici lizinq şirkətlərindən istehsalçıya birbaşa lizinq yolu ilə avadanlıqların alınması məsələsi araşdırıldıqda görürük ki, bir çox yerli vasitəçi şirkətlər və ya yerli istehsal şirkətləri xarici lizinq şirkətlərinin müasir iqtisadi şəraitdə uçot qaydalarına əsasən maliyyə hesabatlarının təqdim edilməməsi əsasında maraqsız tələbədənlərə/müştərilərə çevrilirlər. Bunun qarşısının alınması üçün isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 4 may 2018-ci il tarixli (№ 1140-VQD) "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununda [6] ölkə ərazisində təsərrüfat subyektlərinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsaslanmış uçot sisteminin qurulmasına göstəriş verildi. Bu isə digər əməliyyatların uçotu kimi icarə əməliyyatlarının da uçotda əks etdirilməsinin MHBS əsasında aparılmasını tələb edəcəkdir. Xüsusilə Prezidentin 7 iyul 2021-ci il tarixli sərəncamı ilə Azərbaycanda 14 iqtisadi rayonun yaradılması baş vermişdir. Diqqət etsək görərik ki, bu yeni formalaşdırılmış iqtisadi rayonların ikisi işğaldan azad olunan ərazilərdə yaradılmışdır. Bu isə bu ərazilərdə yeni müasir layihələrin tətbiq edilməsinə və yeni investisiyaların yatırılmasına şərait yaradacaqdır. Bir daha görünür ki, "vaxtında aparılmış düzgün iqtisadı siyasət artıq öz bəhrəsini verməkdədir. Hesab edirik ki, qısa müddət ərzində (həm də yuxarıda göstərilmiş qanuna edilmiş dəyişikliklərə əsasən) baş mühasiblərin peşəkar mühasib sertifikatının əldə edilməsi mərhələli şəkildə başa çatdıqdan sonra yerli təsərrüfat subyektlərinin maliyyə hesabatları MHBS-yə əsasən hazırlanacaqdır" [10, s.8]..

İndi gəlin lizinq əməliyyatlarının təsərrüfat subyektlərinə konkret faydasını göstərək. Beləliklə,

- ✓ Müasir icarə münasibətindən icarədarın avadanlığından istifadə etməklə mənfəət marjasının artırılması;
- ✓ Yeni investisiya mənbəyinin əldə edilməsi;
- ✓ Bir çox məsələlərdə bu sahənin uçotu üzrə maliyyə və vergi uçotunun bir-birinə çox yaxınlaşmasından uçot qeydlərindəki fərqlərin azaldılması;
- ✓ Avadanlığın sublizinqə verilməsi ilə icarəyə götürülmüş əmlakın icarədara geri qaytarılması imkanı;
- ✓ Sonda icarəçinin öz şəxsi əmlakına çevrilmə imkanına əsaslanaraq avadanlıqlardan daha səmərəli istifadə etmək imkanının yaranması və s.

Lizinq xidmətləri müqavilələri ilə müəyyən edildiyindən əsasən iki tip icarə münasibəti yaranır: maliyyə icarəsi və ya lizinq və əməliyyat icarəsi və ya adi icarə [5, s.110]. Buradan da görünür ki, MHBS üzrə keyfiyyət göstəricisi sayılan mahiyyətin formadan üstünlüyü prinsipi icarə müqaviləsinə də təsir edir. Belə ki, avadanlığın hansı tərəfə aid olması, əsasən bu aktivin gələcəkdə fayda verməsini, keçmiş hadisələrdən yarandığını, ölçüləbilən olmasını və mülkiyyətçisinin müəyyən edilməsini tam dəqiq müəyyən etməkdən ibarətdir. Ona görə də “adətən icarə müddəti əmlakın tam istifadə müddətinin ¾-dən çox olarsa və ya icarəçinin icarədara ödədiyi ümumi ödənişi icarə obyektinin ədalətli dəyərinin 90 faizindən böyükdürsə və ya icarə müqaviləsinin sonunda icarə obyektinin qalıq dəyəri onun ilkin dəyərinin 1/5-dən kiçik olarsa bu zaman bu şərtlərə cavab verən müqavilə lizinq müqaviləsi hesab edilə bilər” [8]. Sadəcə mahiyyətin formadan üstünlüyü qorunmalı və göstərilən nisbətlərin əsaslandırılmasında digər keyfiyyət göstəriciləri də (münasiblik, əhəmiyyətlilik, düzgün təqdimat, faydanın onun əldə edilməsinə çəkilən xərclərə adekvatlığı və s.) nəzərə alınmalıdır [1].

MHBS-yə görə maliyyə lizinqi əməliyyat lizinqindən aşağıdakı əsaslarla fərqlənir:

- əməliyyat icarəsi əsasən aktivin qisamüddətə istifadəsini nəzərdə tutursa, maliyyə icarəsi ən azı orta və uzunmüddətli icarə münasibətidir;
- icarə müqaviləsinə əsasən faydanın və risklərin sonda mülkiyyət hüququ kimi ötürülməsi göstərilməsə belə əgər aktivin istifadə müddətinin əhəmiyyətli hissəsi icarəçidə olubsa, onda maliyyə lizinqi kimi qiymətləndirilməlidir;
- icarə müqavilə dəyəri diskondlaşdıqda icarəyə götürülən aktivin ədalətli dəyərinə uyğun gəlirsə, baxmayaraq ki, tərəflər bu müqaviləni ağır şərtli əqd adlandırsa belə bu əməliyyatlar maliyyə lizinqi kimi uçota alınmalıdır.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, əməliyyat icarəsi ilə maliyyə icarəsi arasında əsas fərqlilik faydanın və risklərin ötürülməsi məsələsidir. Belə ki, bəzən yanlışlıqla aktivin istifadə hüquqlarının icarəyə keçməməsini əməliyyat icarəsi adlandırırlar. Bu doğru deyil. Maliyyə icarəsinin təbiətinə nəzər salsaq görərik ki, lizinq - istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən maliyyə xidməti növüdür [9, s.131]. Ona görə də müqavilə şərtinə əsasən sonda mülkiyyət hüququnun icarəçiyə keçib və ya keçməməsindən asılı olmayaraq belə əməliyyatlar lizinq əməliyyatları adlanır. Ancaq onu da qeyd etməliyik ki, hüququn sonda icarəçiyə keçməsi, demək olar ki, praktiki olaraq bütün müqavilələrdə göstərilir.

Uçot işinin müasir qaydalara uyğun qurulması ancaq MHBS əsasında mümkündür

Mühasibat uçotunda maliyyə icarələrinin düzgün qeydiyyatının aparılması bu tip əməliyyatların xüsusiyyətindən birbaşa asılıdır. Ona görə biz lizinq münasibətlərinə görə aşağıdakı uçot aparılmasını təklif edərdik.

a) Lizinq verən müəssisələrdə mühasibat uçotu
b) Lizinq alan müəssisələrdə mühasibat uçotu
c) Vasitəçi təşkilatda mühasibat uçotu
d) Öz aktivini lizinq təşkilatına sataraq ondan həmin aktivi uzunmüddətli lizinq kimi alması

Biz hesab edirik ki, balansda uzunmüddətli aktivlərin düzgün göstərilməsi, faizlər və köhnəlmə xərclərinin uçotu, lizinq müqavilsinin sonunda satışın baş verməsi və uçotda əks olunması, bəzən təsərrüfat subyektinin öz aktivini lizinq təşkilatına sataraq gəlir əldə etməsi və həmin aktivi yenidən lizinqə götürməsi əməliyyatları fonunda mühasibat uçotu kifayət qədər mürəkkəbləşir.

Sıra sayı	Əməliyyatların məzmunu	debet	kredit	Məbləğ
1.	Maliyyə icarəsi ilə avadanlığın verilməsi	174 “İcarə üzrə uzunmüddətli debitor borcları”	111 “Torpaq, tikili və avadanlıqlar-Dəyər”	400 000
2.	Hesablanmış faiz gəlirlərinin uçotu	176 “Faizlər üzrə uzunmüddətli debitor borcları”	442 “Gələcək hesabat dövrlərinin gəlirləri”	100 000
3.	1-ci il üzrə icarə haqqının əsas hissəsi qısamüddətli debitor borcları kimi uçota alınır	214 “İcarə üzrə qısamüddətli debitor borcları”	174 “İcarə üzrə uzunmüddətli debitor borcları”	80 000
4.	1-ci ilin hesablanmış maraq faizi qısamüddətli debitor borc kimi uçota alınır	216 “Faizlər üzrə qısamüddətli debitor borcları”	176 “Faizlər üzrə uzunmüddətli debitor borcları”	20 000
5.	1-ci ilin faiz gəlirləri uzunmüddətli gəlirdən qısamüddətli gəlirə keçirilir	442 “Gələcək hesabat dövrlərinin gəlirləri”	542 “Gələcək hesabat dövrlərinin gəlirləri”	20 000
6.	1-ci il üzrə icarə haqqının əsas hissəsi ödənilir	223 “Bank hesablaşma hesabları”	214 “İcarə üzrə qısamüddətli debitor borcları”	80 000
7.	1-ci il üzrə icarə haqqının faiz hissəsi ödənilir	223 “Bank hesablaşma hesabları”	216 “Faizlər üzrə qısamüddətli debitor borcları”	20 000
8.	1-ci ilin faiz hissəsi cari ilin gəlirinə tanıdılır	542 “Gələcək hesabat dövrlərinin gəlirləri”	631-4 “Maliyyə icarəsi (lizinq) üzrə gəlir”	20 000

Gəlin nümunəvi hesablar planı üzrə icarə əməliyyatlarının hesablarda əks olunmasına nəzər yetirək: hesablar planında uzunmüddətli icarə əsaslı verilən TTA-a görə əməliyyatlar üçün 174 “İcarə üzrə uzunmüddətli debitor borcları” hesabı nəzərdə tutulmuşdur. Qeyd etmək istərdik ki, bu hesab üzrə ancaq icarəyə verən təsərrüfat subyektləri istifadə edir[7]:

Bu hesaba aşağıdakı subhesablar açmaq olar:

174-1 Maliyyə icarəsi üzrə uzunmüddətli debitor borcları

174-2 Əməliyyat icarəsi üzrə uzunmüddətli debitor borcları

174 “İcarə üzrə uzunmüddətli debitor borcları” hesabının debetində və icarəyə verilən əmlakı uçota alan hesabların (111 “Torpaq, tikili və avadanlıqlar-Dəyər”) kreditində əmlakın uzunmüddətli icarəyə verilməsi əks olunur. “İcarə haqqının daxil olması pul vəsaitləri və hesablaşmaları uçota alan hesabların debetində və 174 “İcarə üzrə uzunmüddətli debitor borcları” hesabının kreditində əks etdirilir” [4, s.336]. Bir çox ədəbiyyatlarda lizinq əməliyyatlarının fərqli müxabirləşmələrini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, bu müxabirləşmələr təsərrüfat subyektinin həcmindən, lizinq əməliyyatlarının (müqaviləsinin) müddətindən, uçotun sadə və ya mükəmməl əsaslı qurulmasından asılıdır.

Məsələn, “Şimal” müəssisəsi “Cənub” müəssisəsinə 500 000 dəyərində 5 il müddətinə lizinq və ya maliyyə icarəsi əsasında TTA verib. Göründüyü kimi burada maliyyə icarəsi lizinq müqaviləsi ilə rəsmiləşdiyinə görə bu əməliyyat lizinq əməliyyatıdır. Bu müqavilədə mahiyyət etibarı ilə lizinqə verilən avadanlığın dəyəri ilə yanaşı sonda müddət üzrə ödəniləcək maraq faizi də göstərilməlidir. Bu faiz məbləği əsasən diskont dəyərlə hesablanır və tərəflər arasında razılaşdırılaraq aylara bölünür. Müxabirləşmənin sadəliyi üçün hesab edək ki, TTA-nın dəyəri 400 min manat, maraq faizi isə 100 min manat təşkil edir. Ödənişlər bərabər hissələrə amortizasiya (bölgü mənasında) edilərək 5 il ərzində eyni həcmdə ödəniləcək.

Ancaq bəzi hallarda 17 №-li MUBS icarədardan icarəyə götürülmüş əmlak üzrə köhnəlmə xərcləri cari ilin xərcləri kimi tanıması tələbini qoyur. Belə hallarda standarta əsasən, lizinq əsasında istehsalata verilən (yəni istifadədə olan) aktiv, onların ehtimal edilən ömürləri (gözlənilən istifadə müddəti) ərzində amortizasiya olunmalıdırlar. Əgər icarə müqaviləsinə əsasən əqdin sonunda aktivin onu istifadə edən subyektə (müqaviləyə görə icarəçiyə) mülkiyyət hüquqlarının ötürülməsi əminliyi varsa, onda istifadə müddəti xidmət müddəti kimi tanınacaqdır. Əgər belə bir əminlik yoxdursa, o zaman icarəyə götürülmüş TTA, istifadə müddətində amortizasiya olunur. Burada aktivin mülkiyyətə keçmə və ya amortizasiya müddəti icarə müqaviləsinin müddəti və ya standart istismar müddəti göturulur [10, s.117].

Nəticə

Maliyyə bazarları iştirakçıları həmişə istəyir ki, vacib maliyyə resursları daha əlçatan olsun. Ona görə də maliyyələşmə üçün ayrılacaq maliyyə vəsaitlərinin əldə olunması onun nəticəsinə yönəlməlidir. Lizinq obyektləri bir aktiv kimi maliyyələşmənin nəticəsi olaraq pul vəsaitlərinin təyinatından da daha tez alıcıya əlçatan olur. Deməli pul vasitəsi ilə reallaşa biləcək nəticə artıq bir addım daha yaxın olur. Bu nöqteyi-nəzərdən lizinq bu tələbatı ödədiyinə görə onunla əlaqəli istənilən yanaşma; o cümlədən, hüquqi bazanın təkmilləşməsi, mühasibat uçotunun anlaşılan olması, yeni təhlil metodları, audit işi üzrə lizinq əməliyyatlarına nəzarət və sairə öz əhəmiyyətini ciddi şəkildə artırmışdır. Biz belə nəticəyə gəlirik ki, aqrar lizinq əməliyyatlarının uçot işinin təşkilində aşağıdakı məsələlər öz həllini tapmalıdır:

1. MHBS ilə uçot bütün məqamlar nəzərə alınaraq tam həyata keçirilməlidir.
2. Audit yoxlamaları bütün audit standartlara tam şəkildə əməl edilməsilə yerinə yetirilməlidir.
3. Azərbaycan Respublikasında lizinq münasibətlərinin qorunması, uçotunun istiqamətlərinin formalaşması və lizinqin hüquqi bazasının tamamlanması üçün yenilənmiş “Lizinq fəaliyyəti” haqqında Qanun qüvvəyə minməlidir [2, s. 277].
4. Lizinq əməliyyatı tərəflərinin uçotunun düzgün qurulması üçün konkret uçot təlimatı olmalıdır və icarə münasibətləri uçot sistemi əsasında qüsursuz qeydiyyata alınmalıdır. Məsələn, lizinq üzrə verilmiş subsidiyalar istər hökumət, istərsə də xüsusi fondlar əsasında olduqda bu əməliyyatların uçotu fərqləndirilə bilməlidir.
5. Kadr hazırlığı üzrə MHBS və BAS bilən mütəxəssislərin aqrar sahəyə cəlb edilməsi üzrə mexanizmlər formalaşmalıdır.
6. Avtomatlaşdırılmış uçot proqram təminatlarının tətbiqi sürətləndirilməli və dövlət tərəfindən stimullaşdırılmalıdır.
7. Rəsmiyyətə salınma prosesləri maksimum sadələşdirilməli və bu proses üzrə izafi xərclər minimuma endirilməlidir. Məsələn, geri qaytarılan və maliyyə icarəsinin tələblərinə uyğun gəlməyən vəsaitin sənədləşməsi və uçotu vergi və maliyyə hesabatlarında sadə əməliyyat kimi rəsmiyyətə salınıb retrospektiv düzəlişlərə cavab verməlidir.

Beləliklə, deyə bilərik ki, lizinq əməliyyatları istər elmi-texniki tərəqqinin tətbiqində, istər maddi nemətlər bolluğuna nail olunmasında, istərsə də az maliyyə imkanlarına malik subyektlərin daha intensiv istesala malik olmağa şərait yaradan avadanlıq və ya texnikalara sahib olmasında müstəsna rol oynayır. Ona görə də bu əməliyyatların düzgün qaydada və müasir standartlara əsaslandırılmış uçotunun aparılması uçot sahəsində günümüzün vacib məsələlərindən sayılmaqdadır. Hesab edirik ki, müasir standartlara əsaslandırılmış uçot, gələcəkdə düzgün qərarların verilməsində və xarici investorların kapital qoyuluşlarının cəlb edilməsində əhəmiyyətli rol oynayacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının “ 30” yanvar2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmiş “Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsasən Mühasibat Uçotunun Aparılması Qaydaları”

2. Abdulov Ş.V., Əhmədov Y.B. "Kənd təsərrüfatında mühasibat (maliyyə) uçotu" Dərslik. Bakı, Mütərcim-2009, 420 səh.
3. Butova A.A., Txaqapso R.A. Kommersiya strukturlarının lizinq əməliyyatlarının mühasibat və fiskal aspektləri // Vestnik SamGUPS. 2009. № 5-2. S. 38-42).
4. Ə.Salahov, V.Mehdiyev. "Mühasibat uçotu" Dərslik. Bakı 2016. 3 saylı Bakı mətb, 566 səh.
5. R.Fətullayev. "Beynəlxalq mühasibat uçotunun əsasları" Bakı-2019. Nurlar nəşriyyat və poliqrafiya mərkəzi, 320 səh.
6. "Mühasibat uçotu haqqında" AR Qanunu. 29 iyun 2004-cü il tarixli 716 saylı Qanun.
7. Mühasibat Uçotunun Beynəlxalq Standartı "İcarələr" adlı 17 saylı Standart.
8. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı-1994.
9. P.E.Muxtarova və başqaları. "İzahlı mühasibatlıq terminləri lüğəti" Bakı, 2020. Mütərcim, 372 s.
10. X.Cəfərov. "Müxabirləşmələrin praktiki izahı". Bakı,2020. Zərdabi nəşr, 376 səh.

ассистент Гурбан Рауф оглы Мирзаев
диссертант кафедры "Бухгалтерский учет и аудит" Азербайджанский Государственный Аграрный Университет

Место и роль лизинговых операций и их учета в системе финансового учета

Резюме

Цель исследования - изучить роль современных систем учета лизинговых операций в аграрном секторе в мировой экономике, полезность этих систем в стране и их адекватность темпам экономического роста. Также повышением надежности современной системы бухгалтерского учета, соответствующей новым требованиям, является подготовка методов и методик учетно-аудиторской работы этих систем, адаптированных к новым стандартам, а также применение новых методов повышения качества бухгалтерского учета. Бухгалтерская работа.

Методика исследования - в основе методики исследования лежат эмпирические методы, практическое использование опыта, рациональное измерение повышения эффективности финансовой отчетности, векторная проверка организации бухгалтерской работы, оценка, использованы сравнительный анализ и обобщение.

Прикладная значимость исследования – полученные результаты могут быть использованы при реструктуризации бухгалтерского учета и при решении теоретических и практических задач, связанных с ведением бухгалтерского учета во вновь организованных хозяйствующих субъектах.

Результаты исследования - основное значение научно-исследовательской работы заключается в важности правильного учета при принятии решений на основе финансовых данных и подготовке предложений и рекомендаций по формированию элементов оценки и признания на основе современных стандартов лизинговых операций.

Оригинальность и научная новизна исследования - решение представленных в статье задач заключается в достижении подхода по требованиям МСФО в соответствии с современными требованиями за счет использования возможностей методологической базы. В связи с этим рекомендации, представленные в статье, заключаются в максимальном соответствии требованиям современных стандартов при организации учета лизинговых операций, достижении подходов к учету лизинговых операций, отвечающих современным требованиям.

Ключевые слова: аграрная сфера, аудиторская работа, лизинг, стандарты бухгалтерского учета, современные правила бухгалтерского учета.

assistant Gurban Rauf Mirzayev
dissertant of the department
“Accounting and audit” ASAU

Place and role of leasing operations and their accounting in the financial accounting system

Summary

The purpose of the study is to investigate the role of modern accounting systems of leasing operations in the agricultural sector in the world economy, the usefulness of these systems in the country, and their adequacy to the rate of economic growth. Also, increasing the reliability of the advanced accounting system corresponding to the new requirements is the preparation of methods and methodologies for the accounting and audit work of these systems adapted to the new standards, as well as the application of new methods to increase the quality of the accounting work.

The methodology of the research - based on the methods, the research is based on empirical methods, the practical use of the experiences, the rational measurement of increasing the effectiveness of financial reporting, the vectorial verification of the organization of the accounting work, evaluation, comparative analysis and generalization were used.

The applied importance of the research - the obtained results can be used in the restructuring of accounting and in solving theoretical and practical problems related to accounting in newly organized economic entities.

The results of the research - the main importance of the research work is the importance of correct accounting in making decisions based on financial data and the preparation of proposals and recommendations on the formation of evaluation and recognition elements based on modern standards for leasing operations.

The originality and scientific novelty of the research - the solution to the problems presented in the article is to achieve an approach according to IFRS requirements in accordance with modern requirements by using the possibilities of the methodological base. In this regard, the recommendations presented in the article are the maximum compliance with the requirements of modern standards in the organization of accounting for leasing operations, and the achievement of approaches to accounting for leasing operations that meet modern requirements.

Key words: agrarian field, audit work, leasing, accounting standards, modern accounting rules.